# Qəbələdən Xocavəndə




Xocavənd rayonunda çox duyğulu, qürurlu və kədərli anlar yaşandı. Qəbələ rayonundan olan, Xocavəndin azadlığı uğrunda canlarından keçmiş igidlərin ata və anaları övladlarının şəhid olduqları müqəddəs yerləri ziyarət etdilər. Hər kəsin qəlbində bir nisgil, gözlərində yaş, amma eyni zamanda sonsuz bir qürur vardı.

Onlar yaxşı bilirlər ki, övladları bu torpaq üçün canlarından keçməklə millətini, dövlətini qürurlandırdılar. Vətən torpağı onların şəhadəti ilə azad, onların igidliyi ilə bütöv oldu.

Bu ziyarət həm də bir mesaj idi - şəhidlərin ruhu daim bizimlədir, onların qəhrəmanlığı unudulmayacaq. Hər şəhid anasının ürəyi vətən sevgisinin ən böyük rəmzidir. Hər şəhid atasının baxışı torpağa bağlılığın, qeyrətin ən uca ifadəsidir.

Bizə bu işdə kömək göstərən, bizə dəstəy olan Xocavənd rayonunun icra başçısı Eyvaz Hüseynova, Xocavənd Rayon Polis Şöbəsinin rəisi Xəyyam Mirhüseynova, Xocavənd Rayon Icra Hakimiyyətininin əməkdaşı Asim Rüstəmə, bizə bələdçilik edən polis işçilərinə şəhid valideynləri minnətdarlıqlarını bildirdilər.

Onu da qeyd edək ki, Vətən müharibəsində Xocavənd uğrunda gedən döyüşlərdə 400-dən çox Vətənin mərd oğulları canlarından keçərək Şəhidlik zirvəsinə ucalmışdır.

Bizim Qəbələ rayonundan olan 7 şəhidimiz Vətən müharibəsində Xocavənd uğrunda gedən döyüşlərdə şəhid olmuşdur. Aqsin Ənvərli, Elməddin Mustafayev, Ağaşirin Babayev, Natiq İsmayilov, Elnur Rəhimov, Təbriz Qasimov, Qoşqar Üzeyirov.

Ordumuzun, dövlətimizin, xalqımızın gücü sayəsində biz bu torpaqlara geri qayıtdıq.

Allah rəhmət eləsin şəhidlərimizə, qazilərimizə can sağlığı versin.

**Təranə ALMƏMMƏDOVA,**
**Dünya Azərbaycanlıların Mədəniyyət Mərkəzi Sabitlik və İnkişaf Mərkəzinin Qəbələ rayon nümayəndəliyinin rəhbəri.**

# Könlümün məhbubu mənim

***Hələ kiçik yaşlarından ana və vətən sözləri dilimizin ilk sözləri, düşüncələrimizin əsasları olmuşdur. Ayaq açıb gəzəndən də obamıza, elimizə istək yaranıb; mənim kəndim, doğulduğum yer, obam demişik o məkana. İllər bir-birini əvəz etdikcə - yaş üstünə yaş gəldikcə dinlədiyimiz laylalardan, söhbətlərdən, oxuduğumuz kitablardan öyrənmişik ki, elə bizə doğma və əziz olan, dünyaya göz açdığımız o kiçik məkandan başlanır Vətən! Azərbaycanın istedadlı şairi Abbas Səhhətin «Vətən» şeiri hər kəsin qəlbinin həyəcan dolu «ritminə» çevrilmişdir:***

***Könlümün sevgili məhbubu mənim...***

***Vətənpərvər ruhlu hər kəs Vətənin hər anında onun müsəlləh əsgəridir. 30 illik əsirlikdən sonra torpaqlarımızın yağı tapdağında olan əraziləri Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə xalqın igid, cəngavər oğullarının igidliyi ilə 44 gün ərzində azad oldu. Bu qisas müharibəsində qəbələli gənclər də şücaətlə döyüşmüşlər. Tarix yazan və ən yüksək insanlıq titulu olan şəhid adı qazananlar qədim Qəbələnin tarixi igidliyinin bariz nümayəndələridir. Onlardan avqust və sentyabr ayında doğulanlar haqqında oxucularımızı bir daha tanış edirik. Onlar həmişə könüllərdə yaşayır!***



Aydın Mətləb oğlu Bayramov - 02.08.2001 - 12.11.2020, Əmirvan kəndi.



Əsəd Ərziman oğlu Zeynallı - 12.08.1999 - 16.11.2020, Seyidqışlaq kəndi.



Babayev İqbal Zəki oğlu - 10.09.1995 - 28.10.2020, Qəbələ şəhəri.



Rəhimov Fariz Zahir oğlu - 20.09.2001 - 12.11.2020, Əmirvan kəndi.



Mikayıllı Mikayıl Mürvət oğlu - 24.09.1993 - 01.10.2020, Mıxlıqovaq kəndi.

**Afət İSRAYILOVA,**
**"Qəbələ səsi"nin ştatdankənar müxbiri.**

# Səsim bu torpağın səsinə köhlən!..

**Acı titulun özəti**

İnsan yer üzünün əşrəfidir deyərlər. Əşrəf sözü bir neçə məna versə də ən mənalı və adına uyğun tərzdə desək, insan yaradılmışların ən şərəflisi deməkdir. Ta doğuluşdan insandakı xüsusiyyətlər ona qan ilə keçər deyimi də həm real, həm də müqəddəs bir ifadədir. Məntiqi düşüncəyə görə də, insan yaş üstünə yaş gəldikcə, dünyagörüşü formalaşdıqca ətraf mühit, ünsiyyətdə olduğu insanlar ona öz təsirini göstərir. Əgər qanında vətənpərvərlik varsa, milli-mənəviyyatı zəngindirsə ətraf mühitin təsirindən çox qan bağları öz təsirini göstərir.

Yaşadığı mühit, ailədəki davranış tərzi öncə öz təsirini göstərir və hər bir körpə ona güc-qüvvət rəmzi olan valideynlərini özünə örnək sanır. Sonrakı həyat etaplarında ətrafı və qarşılaşdığı həyat hadisələri hər bir körpənin ömür salnaməsinə öz izlərini salır.

Vətənpərvərlik vicdani borcdur. Ümumiyyətlə, öz vicdani borcunu dərk etmək müqəddəslik rəmzidir. Bu rəmz isə mənəviyyatlı insanlara məxsus ola bilən bir zənginlikdir.

Ana, Vətən, Torpaq, Xalq məfhumlarını dərk edən hər kəs, insan, şəxsiyyət adına layiqdir. Çünki bu məfhumlar həyatın mənası, bəşər tarixinin inikasıdır.

Vətən üçün canını belə qurban verməyə hazır olanlar ölümsüzlük qazananlardır. Məhz belə bir gənc, belə bir igiddir Coşqun. O Coşqun ki, şəhadət şərbətini içərək insanlığın ən ali titulunu qazandı. Bu Şəhid adıdır!

**İlk tərbiyə ailədən başlayır**

Ailə qurarkən hər kəs çətin və xoş gündə bir-birinə arxa olaraq yaşayacağını düşünürsə, əsil nümunəvi, örnək ola biləcək bir ailənin əsası qoyulur. Bax, Ənvər Bayramovla Dilbər xanım da ailəsinin hər halı ilə birgə olan, övladlarını firavan böyütmək, xalqa yararlı insan kimi yetişdirmək üçün bütün çətinliklərə qatlaşırdılar. Övladlarını alın təri, əl qabarı ilə qazandıqları halal çörəklə böyüdür, qürur və vüqarı ailə üçün insani keyfiyyət kimi hər addımda qazanmağa çalışırdılar. İllər bir-birini əvəz etdikcə, ailədə böyüyən dörd zəhmətkeş övlad da onların "təbiində" böyüyür, zəhmətin, halallığın işığı simalarında, yaşayış tərzlərində belə özünü biruzə verirdi. Əvvəlcə Qəmərvan kəndində yaşayan gənc ailə sonralar Kiçik Əmili kəndinə köçür və elə bu kənddə də məskunlaşırlar. Kiçik Əmili kəndində Ənvər Bayramovun ailəsi özünəməxsus hörmət qazanan bir ailə kimi tanınır.

**Gözləm və inam**

Ailədə böyüyən övladların ilki Coşqun idi. O, 1991-ci ildə, mayın 25-də Qəmərvan kəndində anadan olmuşdur. 1992-ci ildə ailəsi Kiçik Əmili kəndinə köçdüyü üçün bu kənddə yaşamış, boya-başa çatmışdır. Orta məktəbi bitirdikdən sonra 2009-cu il iyulun 2-də əsgəri xidmətə çağırılmışdır. 3 ay Badamdar qəsəbəsində serjantlıq oxumuş, sonra həqiqi xidmətini Beyləqanda davam etdirmişdir. Çavuş kimi hərbi xidmətini başa vurmuşdur. Bir müddət müxtəlif sahələrdə əmək fəaliyyəti ilə məşğul olmuşdur.

2013-cü ilin fevral ayından Azərbaycan Respublikası Prezident Qərargahının Qəbələ bölgəsində texniki işçi kimi işə başlamışdır. İşlədiyi kollektivdə davranışı, intizamı, işinə məsuliyyəti ilə seçilmiş, kollektivin hörmətini qazanmışdı.

Torpaqlarımızın əsarətdə olması, elindən, obasından didərgin düşən insanların hərtərəfli çətinlikləri, ələlxüsus mənəvi əzabları onu da həmişə narahat edirdi. Yağı tapdağında olan torpaqlarımızın harayı fəlsəfi şairimiz Məmməd Araz deyimində deyildiyi kimi :

- Bar parça buludda bir dəniz yükü... - kimi onun da qəlbinə "yük-



lənirdi". Və hər an Vətənin harayına özünü hazır hiss edir, ona "oğul" deməsini gözləyir və inanırdı.

**Azəri torpağı son kəfənimdi,**
**Doymaram bu qara**
**bezimdən mənim...**

İllər öncə Məmməd Araz bu şerində sanki Coşqunun düşüncələrini əks etdirmişdi... Belə ki... Coşqun 2020-ci ilin iyul hadisələrindən, Polad Həşimov başda olmaqla hərbiçilərimizin şəhadətə qovuşmasından sonra artıq torpaqlarımızın yalnız döyüş yolu ilə alına biləcəyini özlüyündə qərarlaşdırmışdı. Mənfur düşmənlərə olan nifrəti artmışdı. Xalqın vətənpərvər övladları kimi özünü döyüşə hazır hiss edirdi. Coşqun 2020-ci il sentyabrın 21-də başlanan hərbi təlimlərə qoşuldu... Sentyabrın 27-də isə Suqovuşan istiqamətində döyüşlərə başladı.

Anası Dilbər xanım müharibə anlarını hər an göz önündə yuxu görürmüş kimi canlandırırdı. Axı döyüşçü anası və atası yuxuya gedə bilmirdi ki... Oğlu ilə sentyabrn 24-də və son dəfə hərbi komisarlıqdan 29-da danışmışdı. Ailə çox həyəcanlı idi. Televiziya və radio xəbər və verilişlərini anbaan izləyir, sosial səhifələrdəki xəbərlərdən də məlumatları öyrənirdilər. Coşqunun qardaşları İntiqam, Asiman və Cəsarət də döyüş xəbərlərindən hər an məlumat toplayır, Coşqunu soraqlaşırdılar... Qardaşları Cəsarət və İntiqam oktyabrın 3- də Coşqunla danışmış, Coşqun onlara iki günə gələcəyini demişdir. Coşqun artıq bir çox əraziləri aldıqlarını, həmçinin "anama de, narahat olmasın məndən!" demişdi. Sonra isə onunla əlaqə kəsilmişdir.

Oktyabrın 6-da şəhid xəbəri kəndə yayıldı. Ata və qardaşları Səhrab qohumları ilə onu axtarmasına baxmayaraq, yalnız oktyabrın 23-də onu Bərdədən tapdılar. Təcili yardım maşınının şoferinin dediyinə görə, Coşqunun nəşi neytral zonadan çıxarıldıqdan sonra onu Bərdəyə gətirmişdi. Ata oğlunu "tanıya bilməmişdi"... qardaşı İntiqam onu tanımış və onu doğma ocağına bayraq "libasında" gətirmişdilər...

**Xoşbəxtlik üçbucağı**

Coşqun ailəli bir gənc idi... 2014-cü ildə rayonumuzun Daşlıca kəndindən olan Çinarə Arzu qızı ilə ailə qurmuş, 2019-cu ildə bir oğul övladları - Röyal dünyaya gəlmişdi. Xoşbəxtlik üçbucağı, gözəl bir ailə kimi yaşayırdılar. Valideynləri də nəvələrini çox sevər və bir neçə il "yolunu gözlədikləri" Röyalı övladlarından da çox sevirdilər.

Coşqunun şəhid olması ailəsini də çox üzdü, Röyalın sehr dolu dünyasını "yıxdı". Ancaq onun üzünün qəmli olmasını belə istəməyən ailə onu atasının istəkləri zəminində böyüməsinə, təhsil almasına çalışırdı.

**Mənəvi acı**

Hər övladın valideyin üçün öz yeri var, hər övladın ata-ana qəlbində öz məbədi var. Coşqunun da həmçinin. Valideynlər igid bir el qəhrəmanını, ər oğullarını cismən itirdilər. Nə qədər qürurlu olsa da şəhid adı, acısı çox, həm də çox ağırdır... Ancaq övlad yadigarının belə ondan uzaqlaşdırılması mənəvi bir acıdır. Övlad qoxusunu onun balasından alan valideynlər hərdən nəvələri ilə görüşsələr də, bu acı ürəklərini göynədir. Həyat çox acımasız... Çinarə xanım keçən ilin iyulun 5-dən ata evinə qayıtmış və onlarla birgə yaşayır. Ancaq elə zənn edirəm ki, (qarşı tərəflə görüşmədiyim üçün) şəhid ana və atası çox kövrək olur, ona görə də ən adi söhbətlərə belə diqqət edilərək, mehribanlıqla qərar verilməlidir. Çünki bu ailədə böyüyən körpəyə ən ağır zərbədir!

Coşqun Bayramov igidliyinə görə bir çox orden və medallarla təltif olunmuşdur. Ancaq onun ruhunun rahatlığı bütün təltiflərdən üstündür. Coşqun tarix yazan bir igid kimi əbədi olaraq könüllərdə yaşayacaq!

**BİBİXANIM**

# Uşaqların təhsilinə və inkişafına dəstək



Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzi tərəfindən yeni tədris ilinin başlaması ilə əlaqədar məktəbyaşlı uşaqların təhsilinə və inkişafına daha fəal şəkildə dəstək göstərmələrini təşviq etmək məqsədilə Heydər Əliyev Mərkəzində valideynlər üçün maarifləndirici görüş keçirilib. Görüşdə çıxış edənlər valideynlərin uşaqlarına diqqət və qayğı ilə yanaşmasının onların təlim müvəffəqiyyətinə və emosional inkişafına mühüm təsir göstərdiyini bildirmiş, valideyn və məktəbin əməkdaşlığının uşaqların sağlam münasibətlər qurması və uğurlu təhsil təcrübəsi qazanmalarına imkan yaratdığını qeyd etmişlər. Həmçinin vurğulanmışdır ki, uşaqların yalnız akademik qiymətləri deyil, göstərdikləri səylər də dəyərləndirilməlidir. Müsbət təşviq və emosional dəstək uşaqların özünəinamını və məktəbə marağını artırır. Görüşdə valideynlərin sualları cavablandırılmış, maarifləndirici videoçarx nümayiş olunmuş, bukletlər paylanılmışdır.